# Novruz ərəfəsi Milli Qəhrəman Əsgər Əliyevin xatirəsi anılıb

**"Vətən, ana torpaq uğrunda şəhid olanlar, doğma xalqına sədaqət nümunəsi göstərənlər heç vaxt unudulmur. Onların xatirəsi qədirbilən xalqımız tərəfindən xatırlanaraq daim ürəklərdə yaşayır". Bu fikirlər Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin anım günü ilə əlaqədar onun adını daşıyan Lənkəran şəhər mədəniyyət və istirahət parkında keçirilən tədbirdə səsləndirilib.**

Milli Qəhrəmanın ailə üzvlərinin, Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) rəsmilərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin, müharibə və əmək veteranlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə çıxış edən ŞİH-in başçısı Taleh Qaraşov şəhidin atası Ələkbər Əliyevə dərin hüznlə başsağlığı verərək, cəsur kursantın xatirəsinin həmişə xalqımız tərəfindən hörmətlə anıldığını, onun şərəfli ömür yolunun gənclərə örnək olduğunu bildirib.

Ələkbər Əliyev öz növbəsində övladının xatirəsinə göstərilən ehtirama, ailəsinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları Milli Qəhrəmanın abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüb, ruhuna ehtiramlarını ifadə ediblər.

Qeyd edək ki, Əsgər Əliyev 1974-cü il noyabrın 8-də Lənkəranın Ləj kəndində anadan olub. 1982-1992-ci illərdə Ləj kənd və Haftonu qəsəbə orta məktəblərində təhsil alib. Daha sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsində təhsilini davam etdirib.




1995-ci il martın 17-də Bakıda hakimiyyəti zorla devirmək cəhdi zamanı Əsgər Əliyev 4 yaralını xilas edərkən aldığı ikinci güllə yarasından dünyasını dəyişib. Doğulduğu kəndin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli sərəncamı ilə Ə.Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

*Ağaddin BABAYEV,*
*Lənkəran*

Azərbaycan. - 2024.- 20 mart, № 62.- S.10.